Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Kollegiyasının
“08” iyun 2015-ci il tarixli
03 nömrəli qərarı ilə təsdiq edilmişdir.

# Kiçik müəssisə kimi özəlləşdirilən müəssisə və obyektlərin ilkin (start) qiymətinin 15%-nin güzəştli satışı QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”na uyğun olaraq hazırlanmışdır və kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə və onlara bərabər tutulan şəxslərə güzəştli satışının həyata keçirilməsi qaydalarını müəyyən edir.

1.2. Kiçik dövlət müəssisələrinin və obyektin ilkin (start) qiymətinin 15%-i digər hissələrin satışı üsulundan asılı olmayaraq işçilərə birbaşa güzəştli satışa yönəldilir.

1.3. Güzəştli satış kiçik müəssisə kimi özəlləşdirilən müəssisə və obyektin güzəştli satışa yönəldilən hissənin dəyərinə 70% güzəşt edilməklə alınan məbləğin işçilər tərəfindən pulla ödənilməsini nəzərdə tutur.

## 2. Əmlak payını güzəştlə almaq hüququ olan şəxslər

2.1. “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən, özəlləşdirilən dövlət müəssisələrinin və ya hissələrinin satışında güzəştlər aşağıdakı şəxslərə aid edilir:

-əsas iş yeri həmin müəssisə hesab edilən işçilər;

-Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmin müəssisədə əvvəlki iş yerinə qayıtmaq hüququ olan şəxslər;

-özəlləşdirilən müəssisədə 7 ildən çox çalışmış və həmin müəssisədən təqaüdə çıxmış şəxslər;

-1995-ci ilin 1 yanvar tarixindən sonra işçilərin sayı və ştatların ixtisarı nəticəsində işdən azad olunmuş və işsiz statusu almış şəxslər.

## 3. Güzəştli satış qaydaları

3.1. Güzəştli satış Əmlak Məsələləri Dövlət Komitəsinin rəsmi mətbu orqanı olan “Mülkiyyət” qəzetində kiçik dövlət müəssisələrinin (obyektlərinin) özəlləşdirilməsi haqqında elan dərc olunduğu gündən etibarən 25 (iyirmi beş) gün müddətində həyata keçirilir.

3.2. Məlumatda aşağıdakılar göstərilməlidir:

- güzəştli satışın qaydaları və müddəti;
- müəssisənin və obyektin ilkin (start) qiyməti;

- güzəştlə satılan əmlak payının ümumi məbləği;

-güzəştli satışda iştirak etmək hüququ olan şəxslərin sayı.

3.3. Kiçik müəssisə və obyektlər özəlləşdirildikdə işçilərə güzəştli satış aşağıdakı qaydada həyata keçirilir:

- müəssisənin əmək kollektivi üzvlərinin və onlara bərabər tutulan şəxslərin 50% -dən çoxunun öz səlahiyyətlərini qanuni surətdə verdikləri hüquqi və fiziki şəxs –vəkil edilmiş şəxs müəyyən edilir;

- vəkil olunmuş şəxs tərəfindən güzəştli satışda iştirak etmək hüququ olan şəxslərin tam siyahısı tərtib edilir;

- güzəştli satışa yönəldilən hissənin dəyərinin 30%-i həcmində məbləğ güzəştli satışda iştirak etmək hüququ olan şəxslərin sayına bölünməklə hər bir işçinin bərabər həcmdə tam ödəyəcəyi məbləğ və ona müvafiq əldə edəcəyi əmlak payı müəyyən edilir;

- güzəştli satışda iştirak hüququ olan şəxslərdən hər biri vəkil olunmuş şəxsə müəyyən olunmuş məbləği tam ödəyir;

- müəyyən olunmuş məbləği tam ödəmiş şəxslərin siyahısı və ödənilmiş məbləğ Kiçik dövlət müəssisələrinin (obyektlərinin) ilkin (start) qiymətinin 15%-nin güzəştli qaydada satışının rəsmiləşdirilməsi komissiyasına (bundan sonra-Komissiya) təqdim edilir;

-təqdim olunmuş məbləğ Komissiya tərəfindən Hərracların Təşkili üzrə Auksion Mərkəzinin xəzinəsinə təhvil verilir;

- vəkil olunmuş şəxs tərəfindən təqdim edilmiş sənədlər əsasında güzəştli satışın yekunlarına əsasən bölüşdürülmüş hissə müəyyən edilir;

-güzəştli satışa çıxarılan əmlakın əmək kollektivinin güzəştli satışda iştirak etməmiş üzvlərinin sayına mütənasib hissəsi (bütünlüklə əmək kollektivi üzvləri və onlara bərabər tutulan şəxslər güzəştli satışdan imtina etdiyi halda hissələrin hamısı) II Dövlət Proqramına uyğun olaraq digər satış üsulları ilə özəlləşdirilir.

-vəkil olunmuş şəxsin təqdim etdiyi sənədlər əsasında güzəştli satışın yekunlarını təsdiq etmək üçün həmin satışda iştirak etmiş şəxslərin ümumi yığıncağı keçirilir və müvafiq yekun sənədlər Komissiyaya təqdim edilir;

3.4. Sənədlər Komissiya tərəfindən təsdiq edildikdən sonra əmək kolletivinin üzvünə və ya vəkil edilmiş şəxsə güzəştli satışın nəticələrini əks etdirən bildiriş verilir.

## 4. Güzəştli satışın yekunu haqqında protokol

4.1.Güzəştli satış başa çatdıqdan sonra Komissiya bu haqda protokol tərtib edir. Protokolda güzəştli satışın keçirilməsi müddəti, güzəştli satışda iştirak edən iştirakçıların siyahısı, onların hər birinin ödədiyi məbləğ və onlara düşən əmlak payı, güzəştli satışa çıxarılan və satılmayan əmlak payı haqqında məlumat əks olunur. Protokol komissiyanın sədri və üzvləri tərəfindən imzalanır.

*Bu bildiriş qiymətli kağız deyil*

# B İ L D İ R İ Ş

Verilir,____________________________________________________________
*(müəssisənin tam adı)*

əmək kollektivinin üzvü____________________________________________ondan ötrü ki,
*(soyadı, adı, atasının adı )*

________________________________________________________________güzəştli
*(müəssisənin tam adı)*

satışında hüququ olan __________________ nəfərdən _______________________ nəfəri
*(rəqəm və sözlə)* *(rəqəm və sözlə)*

__________(______________________________________________) manat
*(rəqəm və sözlə)*

pul vəsaiti ödəmiş və nəticədə güzəştli satışa çıxarılan nizamnamə kapitalının 15 faizi

_____________________________________________________________manatdan
*(rəqəm və sözlə)*

_____________________________________________________________________manat
*(rəqəm və sözlə)*

dəyərində əmlak əmək kollektivinin güzəştli satışda iştirak edən üzvü tərəfindən alınmışdır.

**Komissiyanın sədri**

Güzəştli satışda iştirak etmiş şəxslərin siyahısı

| **№** | **Şəxsin soyadı, adı, atasının adı** | **Ödənilmiş məbləğ (manat)** | **Alınmış əmlakın dəyəri (manat)** |
|---|---|---|---|
| | | | |

“_______________________________________________________________

_______________________________________________________________” müəssisəsində

keçirilən güzəştli satışın nəticələrinə dair əmək kollektivinin ümumi yığıncağının

PROTOKOLU

_____________şəhər (rayon)                                        «____» ____________20        il

İclasda iştirak etdi:_____(________________________) nəfər

İclasın sədri:
İclasın katibi:

Gündəlİk

Müəssisədə keçirilən güzəştli satışın nəticələrinin müzakirə edilməsi.

**DİNLƏNİLDİ:**

Əmək kollektivinin vəkil edilmiş şəxsi ____________________________________________ çıxış edərək bildirdi ki, müəssisədə güzəştli satışda iştirak etmək hüququ olan ______(______________________) şəxsdən _____(______________________) şəxs iştirak edərək ümumilikdə_________(_____________________________________________) manat ödəmişlər və nəticədə güzəştli satışa çıxarılan nizamnamə kapitalının 15 faizi ________(_______________________________________________) manatdan _______(_______________________________________________) manat dəyərində əmlak əmək kollektivinin güzəştli satışda iştirak edən üzvləri tərəfindən alınmışdır.

**ÇIXIŞLAR:**

Əmək kollektivinin üzvləri ______________________,______________________ və ___________________________çıxış edərək bildirdilər ki, müəssisədə güzəştli satış qanunvericiliyə uyğun olaraq keçirilmişdir. Əmək kollektivinin iclasda iştirak edən digər üzvləri çıxış edənlərlə razı olduqlarını bildirdilər. Güzəştli satışın nəticələrinin təsdiq olunması təklif olundu.

**QƏRARA ALINDI:**

“_______________________________________________________________”

müəssisəsində keçirilən güzəştli satışın nəticələri təsdiq olunsun.

İclasın sədri:
İclasın katibi:

M.Y.

“________________________________________________________________________________
_______________” müəssisəsində keçirilən güzəştli satışda iştirak edən əmək kollektivi üzvlərinin

SİYAHISI

| Sıra №si | Soyadı, adı, atasının adı, pasport göstəriciləri | Bir nəfərə düşən əmlak payı (manat) | Ödənilmiş məbləğ (manat) | Şəxsin imzası |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

Əmək kollektivinin üzvü (vəkil edilmiş şəxs) ______________ __________________________
M.Y. imza (soyadı, adı, atasının adı)

**Hərracların Təşkili üzrə**
**Auksion Mərkəzinin direktoru**

_________________________________

_________________________________

_________________________________

müəssisəsinin əmək kollektivinin üzvü
_________________________________
tərəfindən

*Ə R İ Z Ə*

Müəssisədə keçirilən güzəştli satışda mən - əmək kollektivinin üzvü

_________________________________________________________________
(S.A.A.)

_____________________________________________________________ manat
(rəqəm və sözlə)

pul vəsaiti təqdim etmişəm.

Xahiş edirəm, güzəştli satışın nəticələrini rəsmiləşdirəsiniz.

İMZA:

**Hərracların Təşkili üzrə**
**Auksion Mərkəzinin direktoru**

________________________________

________________________________

________________________________

müəssisəsinin əmək kollektivinin üzvü (vəkil edilmiş şəxsi)

________________________________
tərəfindən

*Ə R İ Z Ə*

Mən,____________________________________________________________
(S.A.A., pasport göstəriciləri, PİN ünvan)

________________________________________müəssisədə keçirilən güzəştli satışda iştirak etmək üçün

__________________________________________________________manat
(rəqəm və sözlə)

pul vəsaiti təqdim edirəm.

Xahiş edirəm, güzəştli satışın nəticələrini rəsmiləşdirəsiniz.

**Hərracların Təşkili üzrə**
**Auksion Mərkəzinin direktoru**

______________________________

______________________________

______________________________

müəssisəsinin əmək kollektivinin
vəkil olunmuş şəxsi______________

_____________________ tərəfindən

# Ə R İ Z Ə

Bunununla bildirirəm ki, _______________________________________ müəssisənin əmək kollektivinin üzvləri güzəştli satışda iştirak etmiş və iştirak edənlərin hər biri __________________________________ _____________________________________________________ manat pul vəsaiti təqdim etmişlər.

Güzəştli satışın nəticələrinə dair əmək kollektivinin ümumi yığıncağının protokolunu, əmək kollektivi üzvlərinin siyahısını, pul vəsaitini Sizə təqdim edərək bu sənədləri müəyyən olunmuş qaydada qəbul etməyinizi və müvafiq bildiriş verməyinizi xahiş edirəm.

Müəssisənin əmək kollektivinin
vəkil olunmuş şəxsi ________________________

M.Y.